

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 22 (21.432)

*4 fevral 2016-cı il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## F.N.Ələkbərova general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Fazil Nəriman oğlu Ələkbərova general-mayor ali hərbi rütbəsi verilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 fevral 2016-cı il*

## Daşınmaz əmlakın qeydiyyatı sadələşdirilir

***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən vətəndaşlara göstərilən səyyar xidmət muxtar respublikada daşınmaz əmlak bazarının aktivləşməsinə, daşınmaz əmlakın iqtisadi proseslərə cəlb olunmasına böyük təkan olmaqla, komitənin fəaliyyət istiqamətləri üzrə səmərəliliyin artırılmasında da mühüm rola malikdir. Səyyar xidmətin təşkili həm də yerlərdə vətəndaşların müraciətlərinin operativ şəkildə cavablandırılmasına, vaxta qənaət edilməsinə, şəhər və ya rayon mərkəzlərinə getmədən müraciətlərin yerində və qısa zamanda həll edilməsinə imkan yaradır.***

Bu barədə məlumat qəzetimizə Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsindən daxil olub. Məlumatda bildirilir ki, 2015-ci il ərzində komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublikanın ucqar kənd yaşayış məntəqələrində əhaliyə səyyar xidmət göstərilməsi təmin olunub. Ordubad rayonunun 17 yaşayış məntəqəsindən 411, Culfa rayonunun 20 yaşayış məntəqəsindən 398, Şərur rayonunun 17 yaşayış məntəqəsindən 309, Babək rayonunun 14 yaşayış məntəqəsindən 128, Şahbuz rayonunun 8 yaşayış məntəqəsindən 107, Kəngərli rayonunun 7 yaşayış məntəqəsindən 125, Sədərək rayonunun 2 yaşayış məntəqəsindən 24 müraciət olmaqla, ümumilikdə, ötən il ərzində səyyar xidmət qrupu tərəfindən 85 yaşayış məntəqəsində 1502 vətəndaşın müraciətinə baxılıb.

Səyyar xidmət zamanı yaşadıqları ərazidə vətəndaşların ərizələri qəbul olunaraq məlumat bazası ilə dəqiqləşdirilib, elektron sistemə daxil edilərək texniki sənədlər hazırlanıb. Vətəndaşlara daşınmaz əmlak üzərində əvvəllər yaranmış hüquqlarla bağlı verilmiş mülkiyyət sənədləri – torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr, dövlət aktları, qeydiyyat vəsiqələri daşınmaz əmlakın dövlət reyestrindən çıxarışla əvəz edilib.

2016-cı ildən etibarən vətəndaşlara səyyar qaydada göstərilən xidmətlərin sayı artırılıb, daşınmaz əmlak barəsində notariat qaydasında təsdiq edilmiş müqavilələr və vərəsəlik hüququ haqqında şəhadətnamələr əsasında hüquqların qeydiyyata alınması, daşınmaz əmlakın texniki pasportunun hazırlanması, torpaq sahəsinin plan-ölçüsünün hazırlanması, daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış əmlaklara məhdudiyyət və yüklülüyə dair arayışların verilməsi üçün sənədlərin qəbuluna başlanılıb.

Xatırladaq ki, səyyar xidmət zamanı ahıl, sağlamlıq imkanları məhdud insanlara onların yaşadıqları ünvanlarda xidmət göstərilir.

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir

***Fevralın 3-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin və Kəngərli Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonun Yurdçu kəndində ətraf mühitin mühafizəsinin qanunvericiliyə uyğun təşkili, icra vəziyyətinin yoxlanılması və qiymətləndirilməsi mövzusunda tədbir keçirilib.***

Bələdiyyələr, icra nümayəndələri və kənd sakinlərinin iştirak etdiyi tədbiri Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Hacırəddin Möhbalıyev açıb.

Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini Ziyafət Əliyev Naxçıvanda sağlam ekoloji mühitin yaradılması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Qeyd olunub ki, 2015-ci ildə muxtar respublikada meşəsalma, meşəbərpa və yeni meyvə bağlarının salınması, mövcud meşə ehtiyatlarının qorunması məqsədilə 541 hektar sahədə yaşıllaşdırma tədbirləri, o cümlədən 27,5 hektar sahədə meşə əkini, 324,2 hektar sahədə meşəbərpa işləri və 139,3 hektar sahədə meyvə bağları, eləcə də Kəngərli rayonunda 50 hektar sahədə püstə bağlarının salınması tədbirləri həyata keçirilib.

Vurğulanıb ki, əlverişli ekoloji mühitin yaradılmasında mühüm amillərdən biri də təbiət abidələrinin, bitki və heyvan ehtiyatlarının qorunması və bərpası, tullantıların toplanması və zərərsizləşdirilməsi qaydalarına əməl edilməsi, təbii resurslardan xalqımızın rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə olunmasıdır. Muxtar respublikamızda ekoloji tarazlığın qorunub saxlanılması üçün mühüm addımların atılmasına baxmayaraq, hələ də ətraf mühitə biganə yanaşanlara rast gəlinir. Unutmaq olmaz ki, ətraf mühitə ziyan vurulması nəticəsində bitki örtüyünün, heyvanların, su obyektlərinin, bioloji sərvətlərin məhv olması, atmosferin çirklənməsi halları baş verir. Buna görə də ətraf mühitin qorunması hər birimizin vətəndaşlıq borcudur.

Məruzə ətrafında çıxışlar olub.

Sonra Yurdçu kənd tam orta məktəbində muxtar respublikamızın fauna və flora nümunələrindən ibarət sərgiyə baxış olub, məktəblilər üçün videoçarx nümayiş etdirilib.

**Səbuhi HƏSƏNOV**

***Müasir dövrdə dünya iqtisadiyyatına inteqrasiyanın mühüm göstəricilərindən biri xarici ticarətdir. Mal və xidmətlərin idxal və ixracı hesabına əhali rifahının təmin olunması dövlətlərin apardığı iqtisadi siyasətdə əsas yerlərdən birini tutur. Bu həm də dünya üzrə iqtisadi resurslardan səmərəli istifadəyə və istehsalatda ixtisaslaşmaya şərait yaradır. Nəticədə, keyfiyyətli və münasib qiymətə təklif olunan mal və xidmətlər öz alıcısını tapmaqla bərabər, ölkələrin valyuta gəlirlərini də artırır. Bu baxımdan hazırkı dövrdə muxtar respublikamızdan xaricə göndərilən ixracyönümlü mal və xidmətlər ölkəmizin valyuta gəlirlərinə mühüm töhfələr verməkdədir.***

## Naxçıvanın ixrac imkanları genişlənir

Muxtar respublikamızda son illər ixracyönümlü məhsul istehsalı prioritet məsələlərdən birinə çevrilmişdir. Belə ki, həyata keçirilən iqtisadi siyasətin nəticəsi olaraq muxtar respublikamızda 441 müəssisə tərəfindən istehsal olunan 361 növdə və 1116 çeşiddə məhsul daxili bazarın tələbatlarını ödəməklə yanaşı, idxaldan asılılığın da azaldılmasında mühüm rol oynayır. Qeyd edək ki, hazırda muxtar respublikada 343 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Bununla yanaşı, Naxçıvandakı bir çox müəssisə artıq xarici bazarlarda özünəməxsus yer tutmağa başlamışdır. Belə ki, bu gün muxtar respublikada istehsal gücünə görə 51 müəssisə ixrac potensialına malikdir. Həmin müəssisələr tərəfindən 60 növdə məhsulun istehsalı həyata keçirilir. Bu gün muxtar respublikada qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və İSO 17025-2005 tələblərinə cavab verən laboratoriya fəaliyyət göstərir ki, ixrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar məhz buradan təmin olunur.



2015-ci ildə muxtar respublikada xarici ticarət dövriyyəsinin həcmi 512 milyon 354 min 500 ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 414 milyon 420 min 600 ABŞ dollarını ixrac, 97 milyon 933 min 900 ABŞ dollarını idxal təşkil etmiş və 316 milyon 486 min 700 ABŞ dolları həcmində müsbət saldo yaranmışdır. 2014-cü illə müqayisədə ixracın həcmi 1,4 faiz artmış, idxalın həcmi isə 10 faiz azalmışdır. İxracın həcmində 316 milyon 797 min 300 ABŞ dolları dəyərində sənaye məhsulları üstünlük təşkil edir. Xarici ticarət dövriyyəsində ixracın üstünlüyü valyuta qazancı deməkdir ki, bu da ölkənin ödəmə balansına və ümumilikdə, iqtisadiyyata müsbət təsir göstərir.

Xarici bazarlara çıxışın təmin edilməsində muxtar respublikada fəaliyyət göstərən şirkətlərə ixrac təşviqlərinin verilməsi, onlara xarici bazarlara çıxış üçün müxtəlif dəstək mexanizmlərinin tətbiqi dairəsi genişlənir. Belə ki, artıq muxtar respublikada "İnvestisiya təşviqi sənədi"nin tətbiqinə başlanmışdır. Bu sənədi əldə etmiş sahibkarlar 7 illik müddətə gətirdikləri avadanlıq və qurğuların idxalı üzrə əlavə dəyər vergisi və gömrük rüsumlarından, həmçinin əmlak və torpaq vergisindən azad olunması nəzərdə tutulmuşdur. Kənd təsərrüfatı və emal məhsullarının ixracı zamanı geri ödəmə dəstəklərinin tətbiqi, şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasına dövlət maliyyə yardımlarının göstərilməsi imkanları nəzərdən keçirilir. Bununla yanaşı, Naxçıvanda istehsal olunmuş məhsulların xarici bazarlarda reklamı, onların dünyada qəbul olunmuş standartlar səviyyəsində dizaynı və başqa bu kimi məsələlər öz aktuallığını qoruyur. Qeyd edək ki, muxtar respublikamızda bu sahədə beynəlxalq keyfiyyət idarəetmə sistemləri (İSO) tətbiq olunur.

Gündən-günə Naxçıvan Muxtar Respublikasının xarici ticarət əməliyyatlarında ixrac meyilləri artmaqdadır. Muxtar respublikadan yükdaşımalarının artmasına imkan verəcək nəqliyyat imkanlarının yaxşılaşması ixracatın əhəmiyyətli dərəcədə artırılmasına şərait yaradacaqdır. Həmçinin tranzit yükdaşımalarının da muxtar respublika ərazisindən keçməsi burada xarici ticarətin daha da inkişafını təmin edəcəkdir.

Muxtar respublikada istehsal olunan ixracyönümlü ərzaq məhsulları daha çox saf və təbiidirlər. Müasir dünyada təbii məhsullara verilən üstünlük belə məhsulların xarici bazarlara çıxarılma imkanlarını artırır. Bu məqsədlə muxtar respublikada ilk dəfə olaraq məhsul ixracına dəstək məqsədilə "Naxçıvan Məhsulları" MMC təsis edilmişdir. Müəssisənin əsas vəzifəsi məhsulların respublika ərazisində satışının genişləndirilməsi, qablaşdırma, dizayn, markalanma və digər göstəricilərin yaxşılaşdırılması, xarici ölkələrə ixracın təşkil edilməsindən ibarətdir.

Hazırda Naxçıvan Muxtar Respublikasında istehsal edilən çox sayda məhsul ixrac baxımından perspektivli hesab olunur. Məhsul ixracı marketinq və reklam işinin təşkili ilə birbaşa əlaqəlidir. Bu baxımdan sərgilərdə iştirak, reklam kampaniyalarının təşkili, təbliğat işləri xüsusi əhəmiyyət kəsb edir. Son illərdə muxtar respublikadan 1200 nəfərdən çox nümayəndə 62 xarici ölkə sahibkarları ilə keçirilmiş 230-dan çox yerli və beynəlxalq əhəmiyyətli sərgi, biznes-forum və konfranslarda iştirak etmişdir. Təkcə 2015-ci ildə 78 nəfər 21 beynəlxalq əhəmiyyətli tədbirdə iştirak etmiş, muxtar respublikada istehsal olunan 20 növdə ərzaq məhsulları Almaniya Federativ Respublikasında keçirilən "Green Week", Birləşmiş Ərəb Əmirliklərində keçirilən "Gulfood", Səudiyyə Ərəbistanı və İran İslam Respublikasında keçirilmiş müxtəlif sərgilərdə nümayiş olunmuşdur.

Naxçıvanın əsas ixrac məhsullarından məşhur mineral sularımızı, təbii duzu, vafli məmulatlarını, çay, emal olunmuş ət və meyvə məhsullarını, qazlı aromatlaşdırılmış içkiləri, spirtli içkiləri, meyvə şirələrini, yüksəkkeyfiyyətli tikinti məhsullarını, o cümlədən Naxçıvan sementini, gips və daş məmulatlarını, xam dəri, plastik və metal məmulatlarını, mebel, metal örtüklər, panel radiatorlar, karbon qazı, uşaq bezləri və digər çox sayda məhsulları misal göstərmək olar. 2015-ci ildə muxtar respublikada istehsal olunan sement, travertin daş məmulatları, meyvə şirələri, vafli məmulatları Gürcüstana, yarımfabrikat dəri, mineral sular Türkiyə, İran və MDB ölkələrinə, NAZ-Lifan avtomobilləri Belarusa ixrac olunub. 2016-cı ildə məhsullarımızın Rusiya və Birləşmiş Ərəb Əmirliklərinə çıxışı istiqamətində zəruri tədbirlər həyata keçirilir.

Son illər muxtar respublikada ixrac potensiallı bölmənin inkişafına təkan verəcək yeni müəssisələrin yaradılması rəqabətə davamlı məhsulların sayını daha da artırmışdır. Babək rayonu ərazisində yeni istifadəyə verilmiş Naxçıvan Günəş Elektrik Stansiyası da muxtar respublikanın ixrac potensialının genişlənməsi baxımından xüsusi əhəmiyyəti olan müəssisələrdəndir. Valyuta gəlirləri baxımından yüksək potensialı olan digər bir sahə isə turizmdir. Belə ki, beynəlxalq turizmin inkişaf etdirilməsi ilə adi mal və məhsul ixracından daha sərfəli olan turizm məhsulunun ixracı imkanı yaranır ki, bu da hazırkı dövrdə ölkəmizdə qeyri-neft sektorunun əsas prioritetləri arasındadır.

*Hər bir ölkənin yalnız milli sərhədləri içərisində həyata keçirilən istehsal həmin ölkədəki tələbatla məhdudlaşmaq məcburiyyətindədir. Lakin məhsul ixracına nail olmaq həmin məhsulun istehsalını dəfələrlə artırmaq imkanı yaradır. Bu həm də həmin ölkənin tanıdılması baxımından çox vacibdir.*

**Əli CABBAROV**

# Avtomobil yollarında hərəkətin təhlükəsizliyi təmin olunub

***Muxtar respublikamızın sosial-iqtisadi inkişafının nəticəsi olaraq avtomobillərin sayı ildən-ilə artmaqdadır. Təbii ki, avtomobillərin sayının artması yollardakı hərəkətin intensivliyinə də öz təsirini göstərir. Bu isə, öz növbəsində, dövlət yol polisi əməkdaşlarının qayğılarını artırır. Bəs hərəkətin tənzimlənməsi üçün hansı tədbirlər görülür? Bu və ya digər suallara aydınlıq gətirmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Yol Polisi İdarəsinin rəisi, polis polkovnik-leytenantı Aydın Ağayevlə həmsöhbət olduq.***

*– Aydın müəllim, avtomobil yollarında hərəkətin intensivliyinin və təhlükəsizliyinin təmin olunması üçün hansı profilaktik tədbirlər həyata keçirilir?*

– Avtomobillərin sayının artması yollarda hərəkətin intensivliyinin təmin edilməsi üçün əlavə tədbirlərin görülməsi zərurətini yaradır. Bu məqsədlə Naxçıvan şəhərinin Heydər Əliyev prospektində, Əziz Əliyev, Atatürk, İslam Səfərli, Cəlil Məmmədquluzadə, İdris Məmmədov, Sabir, “İstiqlal” küçələrində və “Çənlibel”, “Qoçüstü”, Xətai məhəllələrində, Naxçıvan Beynəlxalq Hava Limanına və dəmiryol vağzalına gedən avtomobil yollarında, ümumilikdə, 19 ədəd işıqfor quraşdırılmışdır. Eyni zamanda ayrı-ayrı ünvanlarda 20 ədəd kamera quraşdırılmışdır ki, bu da yol hərəkəti qaydalarını pozan sürücülərə mütəmadi nəzarət etmək imkanı yaradır.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və nəqliyyat vasitələrinin sürətlə idarə olunmasının qarşısının alınması məqsədilə Naxçıvan-Sədərək respublika əhəmiyyətli avtomobil yolunda 3, Naxçıvan-Şahbuz avtomobil yolunda 1, Naxçıvan-Culfa avtomobil yolunda 2 ədəd sürətölçən qurğu, həmçinin xidməti fəaliyyətdə operativliyin təmin edilməsi və törədilmiş inzibati xətaların qeydə alınması üçün xidməti avtomobillərdə 25 ədəd bortkompüter, yol-patrul inspektorlarının xidməti fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə 25 ədəd nəzarət-izləmə kameraları quraşdırılmışdır. Eyni zamanda yol-patrul inspektorları yerində sərxoşluq dərəcəsini müəyyən edən alkotesterlərlə, yol hərəkəti qaydalarına riayət etməyən piyadaların kimliyini müəyyən etmək üçün planşetlərlə təmin olunmuşdur.

Yol hərəkəti təhlükəsizliyi ilə bağlı “Diqqət, piyadalar”, “Diqqət, uşaqlar”, “Təhlükəsizlik kəməri”, “Yollarda həmrəy olaq, təhlükədən uzaq olaq” və sair adlar altında aylıqlar və həftəliklər keçirilmiş, dövri mətbuatda materiallar dərc olunmuşdur. Həmçinin dövlət yol polisi əməkdaşları ictimaiyyət arasında, ayrı-ayrı məktəblərdə, idarə, müəssisə və təşkilatlarda 731 dəfə görüşlər keçirərək maarifləndirici söhbətlər aparmışlar. Muxtar respublika üzrə istismarda olan işıq əks etdirən yol nişanları daim nəzarətdə saxlanılmış, zərurət yarandıqda yenisi ilə əvəz edilmişdir. İstismarda olan işıqforların fasiləsiz fəaliyyəti də diqqət mərkəzindədir.

*– Nəqliyyat vasitələrinin texniki baxışdan keçirilməsi haqqında yeniliklərlə bağlı oxucularımıza məlumat verərdiniz.*

– Yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında əsas vəzifələrdən biri də muxtar respublikamızda qeydiyyatda olan nəqliyyat vasitələrinin texniki baxışa cəlb edilməsi və onların texniki cəhətdən istismara yararlılığının yoxlanılmasıdır. Son illər müasir avadanlıqlarla təmin olunmuş avtomobillərin müayinə mərkəzlərinin istifadəyə verilməsi avtomobillərin yüksək səviyyədə texniki müayinədən keçirilməsinə əlverişli şərait yaratmışdır. 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Şərur Rayonlararası Müayinə Mərkəzi, ötən il isə Culfa və Ordubad Rayon Müayinə mərkəzləri istifadəyə verilmişdir. Əvvəllər muxtar respublikada bir müayinə mərkəzi fəaliyyət göstərirdi. Lakin avtomobillərin sayının artması yeni müayinə mərkəzlərinin yaradılmasını zəruri etmişdir. Müayinə mərkəzlərinin istifadəyə verilməsi sakinlərin rahatlığının təmin olunmasına, onların büdcələrinə və vaxtlarına qənaət etmələrinə imkan verir. Artıq müxtəlif rayonlarda yaşayan insanlar Naxçıvan şəhərinə gəlmədən müayinə mərkəzlərində öz nəqliyyat vasitələrini texniki baxışdan və sığorta qeydiyyatından keçirə bilirlər.

“Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə əsasən, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri, avtobuslar, həmçinin təhlükəli yüklərin daşınması üçün xüsusi təyinatlı nəqliyyat vasitələri ildə bir dəfə, icazə verilən maksimum kütləsi 3,5 tondan az olan yük və minik avtomobilləri istehsal olunduğu vaxtdan 4 il keçdikdə texniki baxışa təqdim olunur. Həmin avtomobillər istehsal tarixindən ötən 10 ilədək müddətə 2 ildə bir dəfə, istehsal tarixi 10 ildən yuxarı olduqda isə ildə bir dəfə dövlət texniki baxışdan keçirilməsi üçün təqdim olunmalıdır. Qanunvericiliyə uyğun olaraq, respublika ərazisində daimi və ya müvəqqəti qeydiyyatda olan nəqliyyat vasitələrinə və qoşqulara dövlət texniki baxış ildə bir dəfə – yanvar ayının 1-dən oktyabr ayının 31-dək olan müddətdə həyata keçirilir. Məlumat üçün qeyd edim ki, “VAZ”, “QAZ”, “ZAZ”, “UAZ” markalı və digər MDB istehsalı olan avtomobillər üçün yanvar ayının 1-dən iyun ayının 1-dək, xarici ölkələrdə və onların baza modelləri əsasında MDB ölkələrində istehsal olunan minik avtomobilləri üçün iyun ayının 1-dən avqust ayının 1-dək, yük avtomobilləri və avtobuslar üçün avqustun 1-dən oktyabrın 31-dək texniki baxış keçirilməsi müddəti müəyyənləşdirilmişdir.

Muxtar respublikamızda daimi qeydiyyatda olan hüquqi və fiziki şəxslərə məxsus nəqliyyat vasitələrinin qanunvericiliyə uyğun olaraq texniki baxışdan keçirilməsi diqqət mərkəzində saxlanılmış, ötən il 19 min 204 nəqliyyat vasitəsi texniki baxışdan keçirilmişdir.

*– Muxtar respublikamızda yol hərəkəti qaydaları pozuntusuna qarşı mübarizə tədbirləri gücləndirilib. Bu, yol-nəqliyyat hadisələrinin baş verməmədən qarşısının alınmasına necə təsir göstərib?*

– Dövlət yol polisinin fəaliyyət istiqamətləri yol-nəqliyyat hadisəsinin qarşısının alınması və nəqliyyat vasitələrinin texniki baxışa cəlb edilməsi ilə yanaşı, həm də yol hərəkəti qaydaları pozuntularına qarşı mübarizənin aparılmasından ibarətdir. Ötən il dövlət yol polisi əməkdaşları tərəfindən 22 min 998 yol hərəkəti qaydaları xətası, o cümlədən yolda müəyyən edilmiş sürət həddinin aşılmasına görə 2582, yol nişanlarının tələblərinə riayət etməyən 4822, sürücülük hüququ olmadan nəqliyyat vasitəsini idarə edən 125, nəqliyyat vasitəsini vəkalətsiz idarə edən 714, nəqliyyat vasitəsini texniki baxışdan keçirmədən idarə edən 517, nəqliyyat vasitəsinin hərəkəti zamanı sükan arxasında telefonla danışan 129, təhlükəsizlik kəmərindən istifadə etməyən 1623, avtonəqliyyat vasitələrini sərxoş vəziyyətdə idarə edən 288 nəfər aşkar edilərək barələrində inzibati qaydada tədbir görülmüşdür. Onu da qeyd edək ki, yol hərəkəti qayda pozuntularından 3629-u foto və video qeydiyyat funksiyalarına malik olan xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilmişdir. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə inzibati məsuliyyətə cəlb edilmiş şəxslərin cərimə edilməsi barədə qərar çıxarılaraq həmin şəxslərə bildirişlər verilmişdir. Yol hərəkəti qaydalarını pozan sürücülər barəsində qəbul edilmiş qərarlar üzrə cərimələrin məbləği 925 min 564 manat olmuşdur. Onu da qeyd edim ki, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsində və idarənin balansında olan 5 ədəd xidməti avtomobildə POS-terminallar quraşdırılmış, cərimələrin POS-terminallar vasitəsilə ödənilməsinə əlverişli şərait yaradılmışdır. Sürücülər arasında aparılan maarifləndirici söhbətlər öz nəticəsini vermiş, cərimələrin 229 min 333 manatı POS-terminallar vasitəsilə ödənilmişdir. Həyata keçirilən profilaktik tədbirlərdə məqsəd baş verə biləcək yol-nəqliyyat hadisələrinin vaxtında qarşısını almaqdan ibarətdir ki, bu da vətəndaşların sağlamlığının qorunmasına xidmət edir.

Həyata keçirilən qabaqlayıcı profilaktik tədbirlər yol-nəqliyyat hadisələrinin baş verməmədən qarşısının alınmasına əlverişli şərait yaratmış, ötən il muxtar respublikanın avtomobil yollarında 10 yol-nəqliyyat hadisəsi qeydə alınmışdır. Ağır yol-nəqliyyat hadisələrinin başvermə səbəbləri təhlil edilərək müəyyən olunmuşdur ki, fərdi avtomobil sahiblərinin yorğun və yuxusuz vəziyyətdə ailə üzvləri ilə yola çıxmaları hadisələrin baş verməsinə, onların ağırlıq dərəcəsinə birbaşa təsir göstərir və həzırda bu istiqamətdə sürücülər arasında maarifləndirici tədbirlər həyata keçirilməkdədir.

*– Avtomobillərin qeydiyyata alınması və sürücülük vəsiqələrinin verilməsi işi vaxtında aparılırmı?*

– Avtomobillərin qeydiyyata alınması, qeydiyyat nişanı, qeydiyyat şəhadətnaməsi və sürücülük vəsiqələrinin verilməsi işi də diqqət mərkəzindədir. Ötən il Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-imtahan və texniki baxış şöbəsi tərəfindən 2407 ədəd qeydiyyat nişanı, 5771 ədəd qeydiyyat şəhadətnaməsi, 2528 ədədi ilkin olmaqla, ümumilikdə, 4879 ədəd sürücülük vəsiqəsi verilmişdir. 896 ədəd nəqliyyat vasitəsi ilkin, 4283 ədəd nəqliyyat vasitəsi isə təkrarən qeydiyyata alınmışdır. 703 nəqliyyat vasitəsi qeydiyyatdan çıxarılmış, 335 avtomaşın çıxdaş olunmuşdur.

*– Sonda oxucularımıza nə demək istərdiniz?*

– Son illər muxtar respublikamızda digər sahələrdə olduğu kimi, yol infrastrukturunun yeniləşməsi istiqamətində də kompleks tədbirlər həyata keçirilmiş, avtomobillərin maneəsiz hərəkətinə əlverişli şərait yaradılmışdır. Avtomobil yollarının keçdiyi ərazinin şəraitinə uyğun sürət həddi qoyulmuş, işıqforlar quraşdırılmış, piyada keçidləri müəyyənləşdirilmişdir. Yaddan çıxarmaq olmaz ki, sürət həddini aşma, sürücülərin diqqətsizliyi və piyadaların keçidlərdən düzgün istifadə etməməsi avtomobil yollarında qəza halları yaradır, bəzən də ağır yol-nəqliyyat hadisəsi ilə nəticələnir. Bu da insanların sağlamlığına xəsarət yetirir və ya həyatına son qoyur. Gəlin özümüzü qoruyaq və başqalarının həyatına təhlükə yaratmamaq üçün yol hərəkəti qaydalarına ciddi əməl edək!

*– Müsahibə üçün sağ olun.*

**Kərəm HƏSƏNOV**

# Qış mövsümündə Şərur şəhərində də heç bir çətinlik yoxdur

***Blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikamızda insanların rahat yaşaması, onların rifah halının daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter alıb. Belə tədbirlər içərisində ilin bütün fəsillərində əhalinin fasiləsiz elektrik enerjisi və təbii qazla təmin olunmasını xüsusi qeyd etmək lazımdır. Qış fəslində elektrik enerjisinə və təbii qaza tələbat bir qədər də artır. Üstəlik də muxtar respublikanın quru kontinental iqlimə malik olması bu mövsümə daha ciddi hazırlaşmağı zəruri edir. Buna görə də hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıqla bağlı müşavirə keçirilir, müşavirədə görülən işlər təhlil olunur, qarşıda duran vəzifələr müəyyənləşdirilir, aidiyyəti qurumlara payız-qış mövsümünü mütəşəkkil surətdə başa vurmaq üçün tapşırıqlar verilir.***




Ötən il avqust ayının 28-də keçirilən müşavirədə də qış mövsümünü mütəşəkkil keçirmək üçün görülən işlər müzakirə edilib, görüləcək işlər müəyyənləşdirilib. Qeyd olunub ki, muxtar respublikanın bütün yaşayış məntəqələrinin elektrik enerjisi və təbii qazla tam təchiz olunması əvvəlki illərdə üzləşilən çətinlikləri aradan qaldırıb. Bu da imkan verib ki, qış aylarında mənzillər, inzibati binalar, təhsil, səhiyyə, mədəniyyət və idman obyektlərinin fəaliyyətində fasilələr yaranmasın.

Qış mövsümünə vaxtında hazırlıq işləri aparılmasının nəticəsidir ki, muxtar respublikanın ən böyük rayon mərkəzlərindən biri olan Şərur şəhərində də heç bir çətinlik müşahidə olunmur. Mövsümün uğurla başa çatdırılmasına məsul olan aidiyyəti qurumların fəaliyyəti belə deməyə əsas verir ki, həmin qurumlar qarşıya qoyulmuş vəzifələri yerinə yetirmək üçün yaradılmış imkanlardan səmərəli istifadə ediblər.

Şərur Şəhər Mənzil-İstismar Sahəsindən aldığımız məlumatda bildirilir ki, 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar olaraq Şərur şəhəri ərazisində yerləşən ictimai yaşayış və inzibati binaların, fərdi evlərin daxilində sukanalizasiya və istilik xətlərinin təmiri, xətlərin yararlı vəziyyətdə saxlanılması, həmçinin yaşayış məhəllələrində sanitar-təmizlik işlərinin görülməsi diqqət mərkəzində saxlanılıb. Mənzil-İstismar Sahəsinin kollektivi şəhərin Heydər Əliyev, K.Seyidov prospektlərində, N.Nərimanov, H.Cavid, M.Müşfiq, M.Ə.Sabir, Nizami, S.Vurğun küçələrində yerləşən binaların istifadəyə yararsız giriş qapılarının, sıradan çıxmış şiferlərin dəyişdirilməsini vaxtında başa çatdırıb, çardaq örtüklərində təmir işləri aparıb. Digər zəruri tədbirlərin də həyata keçirilməsinin nəticəsidir ki, havalar soyuq keçsə də, şəhər sakinləri ciddi çətinliklərlə üzləşmirlər. Mənzil-İstismar Sahəsində yaradılmış reyd briqadası müntəzəm olaraq ictimai və inzibati binalara baxışlar keçirir.

Rayon Suvarma Sistemləri İdarəsi də mövsümə ciddi hazırlaşıb. Əhalinin ekoloji cəhətdən təmiz suya olan tələbatının fasiləsiz şəkildə təmin edilməsi üçün xeyli iş görülüb. İçməli su mənbələrində əsaslı və cari təmir işləri aparılıb. Ehtiyac duyulan su quyularında təzə nasoslar qoyulub, bir neçə artezian quyusu bərpa edilib. İdarənin balansında olan subartezian quyularının təmiri üçün kifayət qədər sarğı materialı, müxtəlif diametrli su borusu ehtiyatı yaradılıb. İçməli su mənbələrinə müntəzəm olaraq baxışlar keçirilir, müəyyən edilən nöqsanlar yerindəcə aradan qaldırılır.

Qış mövsümünün uğurla davam etdirilməsində rayon Elektrik Şəbəkəsi kollektivinin də əməyi böyükdür. Məlumat üçün bildirək ki, rayon üzrə elektrik hava xətlərinin ümumi uzunluğu 1458 kilometrdir. Elektrik enerjisindən qənaətlə istifadə olunması, israfçılıq hallarının qarşısının alınması üçün görülən tədbirlər, keçirilən yoxlama-reydlər, əhali arasında elektrik enerjisindən istifadə və təhlükəsizlik qaydaları haqqında aparılan maarifləndirmə işləri öz bəhrələrini verməkdədir. Elektriklər rayon ərazisində, ümumilikdə, 203 transformatorda, 342 kilometr uzunluqlu müxtəlif kilovoltluq hava xətlərində təmir işləri aparıblar. Şəbəkə tərəfindən 14 yeni transformator qurulub, 45 kilometr uzunluqda yeni xətt çəkilib. Sıradan çıxmış elektrik dirəkləri, dəmir konstruksiyalı dayaqlar dəyişdirilib, 590 metr kabel yenilənib. Təbii ki, bu tədbirlərin bir qismi Şərur şəhərini əhatə edib. Şəhər ərazisinin müxtəlif ünvanlarında aparılan tikinti-quruculuq tədbirləri ilə əlaqədar olaraq görülən işlər qış mövsümündə yarana biləcəyi ehtimal olunan çətinlikləri aradan qaldırıb. Bu təşkilatda da kifayət qədər mal-material ehtiyatı yaradılıb.

Rayonun rabitəçiləri qış mövsümündə şəhər əhalisinin bu xidmət növündən səmərəli istifadə etməsi üçün üzərlərinə düşən vəzifələri yerinə yetirməyə çalışırlar. Şəhərdə 1690 abonent telefon rabitəsindən istifadə edir. Xidmətin səviyyəsini yüksəltmək üçün tədbirlər həyata keçirilib, təmir işləri aparılıb, müxtəlif tutumlu kabellər yeniləşdirilib, rabitə şəbəkəsinin demontaj və montaj işləri yerinə yetirilib.

Qış mövsümü, demək olar ki, öz ömrünün yarısını başa vurmaqdadır. Bu dövrdə Şərur şəhərində də havaların soyuq keçməsi vaxtında hazırlıq tədbirləri görülməsi hesabına sakinləri qorxutmayıb, onları problemlərlə üz-üzə qoymayıb. Şərurlular əmindirlər ki, mövsüm beləcə də başa çatacaq.

**Muxtar MƏMMƏDOV**



*Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası dünya şöhrətli memar Əmirəddin Məsud Naxçıvaninin doğulduğu yerdir. Əmirəddin Məsud Naxçıvani Eldənizlər sarayında yaşamış XII əsrin nüfuzlu Azərbaycan memarlarındandır. Məsud Naxçıvani tərəfindən inşa edilən abidələr bir çox mədəniyyət və arxeoloji sahədə tədqiqat aparan beynəlxalq alimlərin istinad mənbəyi və araşdırma obyekti olmuşdur.*

Naxçıvan xarici mediada

# Naxçıvan Azərbaycan və dünya tarixinin canlı şahididir

Şahbuz rayonunun Biçənək kəndinin şərqində, Batabat yaylağında Fərhad evi arxeoloji abidəsi yerləşir. Fərhad evi Zorbulaqdan təqribən 1 kilometr şərqdədir. Bu abidə liparit tuf qayada külüng tipli metal alətlə qazılmış dörd otaqdan ibarətdir. Tavanlar tağ, döşəmələr oval formasındadır. Divarlarda şam, yaxud çıraq qoymaq üçün kiçik taxçalar qazılmış, səki düzəldilmişdir. Birinci otağın sağ küncündə quyu və ocaq yeri vardır. "Naxçıvan Abidələri Ensiklopediyası" kitabında qeyd olunur ki, abidənin giriş qapısının hündürlüyü 2,2, eni isə 1,3 metrdir. Fərhad evinin olduğu qayanın girişinin sağında qaya üzərində uzunsaqlı kişi başı, solunda isə qadın rəsmi həkk olunmuşdur. Naxçıvan şəhərindən Fərhad evinə olan yol orta əsr ticarət marşrutunun əhəmiyyətli bir hissəsi olmuş, Avropanı Mərkəzi və Şərqi Asiya ilə birləşdirmişdir. Həmin dövrdə Batabat yaylağında mühüm tranzit keçid məntəqəsi tikilmiş və bu imkandan istifadə edərək çoxlu sayda beynəlxalq alimlər və qonaqlar Azərbaycan mədəniyyətinin mühüm aktivlərini və nadir arxeoloji abidələrini tədqiq etmək imkanına malik olmuşlar. Bu ərazi yerli əhali tərəfindən Şah Abbas karvansarası da adlandırılmışdır. Beynəlxalq ekspedisiyalar və yerli




alimlər tərəfindən son dövrlərdə aparılan tədqiqatlar göstərir ki, Fərhad evi I minilliyin birinci yarısında inşa edilmişdir.

Digər bir unikal abidə Şahbuz rayonunun Külüs kəndi yaxınlığında, Külüsçayın sol sahilində eramızdan əvvəl II-I minilliyə aid olan Haqqıxlıq nekropoludur. Hündür təpənin üzərində yerləşən nekropol şimal-şərq və cənub-şərq tərəfdən uca dağlarla əhatə olunmuşdur. Həmin nekropol daş qutu qəbirlərdən ibarətdir. Haqqıxlıq nekropolundan əldə olunmuş maddi-mədəniyyət nümunələrinə əsasən ərazinin bəşəriyyətin mədəni varlığı üçün mühüm xəzinə olması təsdiqini tapmışdır. "Naxçıvan Abidələri Ensiklopediyası" kitabına əsasən Haqqıxlıq nekropolundan insan skeleti qalıqları, ətrafından isə heyvan və quş fiqurları, çəhrayı və boz rəngli gil qab qalıqları aşkar olunmuş, tunc xəncər, nizə ucu, xeyli miqdarda əqiq muncuqlar, bilərzik, sırğa, tuncdan üzük, piləК asmalar, küpə, kasa, qədəh və parç formalı gil qablar tapılmışdır.

Naxçıvan dünya şöhrətli arxeoloji və mədəni abidələrlə zəngin olan bir yerdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: ***"Naxçıvan ərazisində olan tarixi-mədəni abidələr dünya əhəmiyyətli abidələrdir. Bu abidələrin hər biri Azərbaycan xalqının tarixi, mədəniyyəti və adət-ənənələrini özündə əks etdirir. Tarixin canlı şahidi kimi Naxçıvanın hər bir daşı və qayasının Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus xüsusi yeri vardır".***

**Peter TASE**
***28.01.2016***
***Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" və "Eurasia review" qəzetləri, Avropanın mədəniyyət, incəsənət, elm və təhsil nəşri olan "Diogen Pro" jurnalı***

---

***Azərbaycan tədqiqatçıları Əlincəqalanı Naxçıvan-Marağa memarlıq məktəbinin ən gözəl nümunələrindən biri hesab etmişlər. Son illər aparılan araşdırmalar zamanı Əlincəqalanın tarixinə aid yeni faktlar aşkar edilmişdir. Bu faktların bir qismi Əlincəqaladan tapılan VII əsrə aid mis və gümüş sikkələrlə bağlıdırsa, digər faktlar Əlincəqalanın memarlıq üslubu ilə bağlıdır.***

Naxçıvanın tarixi yaddaşı

# Əlincəqalanın sirləri açılır



Sasanilər dövrünə aid divar qalıqları




Əlincəqalada zərb edilən mis sikkə

*Hörmətli oxucular*, Əlincəqaladan tapılan bir gümüş sikkə haqqında sizə məlumat vermişdik. Əlbəttə, bu sikkə Əlincəqalada deyil, Daşkənddə kəsilmişdi. Bununla belə, bu tapıntı Əlincəqalanın VII əsrdə Mərkəzi Asiya ölkələri ilə əlaqəsi olan qala-şəhər olduğunu təsdiq etməkdədir. Bu sikkə Bakı Dövlət Universitetinin dosenti Qənirə Pirquliyeva tərəfindən oxunmuşdur. Tədqiqatçının fikrinə görə, həmin sikkənin üzərində soqd əlifbası ilə "Çaç" sözü və hökmdarın adı yazılmışdır. Təəssüf ki, hökmdarın adı hələlik mütəxəssislər tərəfindən müəyyən edilməmişdir. Çaç Daşkəndin qədim adı olmuşdur. Sikkənin VII əsrdə kəsilməsi, şübhəsiz ki, qalanın Sasanilər dövründə yerli hökmdarların əsas iqamətgahlarından biri olduğunu göstərir.

Əlincə qalasından tapılan digər mis sikkə rus şərqşünası A.K.Markov tərəfindən 1897-ci ildə nəşr edilmişdir. Nədənsə bu sikkə uzun müddət tədqiqatçıların nəzərindən kənarda qalmış və tədqiqata cəlb olunmamışdır. Nəticədə, Azərbaycan numizmatikasına dair yazılan əsərlərdə Əlincəqalanın adı Azərbaycanın əsas zərbxanaları içərisində çəkilsə də, bu zərbxanada kəsilən sikkələr haqqında ətraflı məlumata rast gəlmirik. Bəzi numizmat tədqiqatçılar Əlincə zərbxanasını XIII-XIV əsrlərə aid etmişlər. Lakin bəzi tədqiqatçılar haqlı olaraq Eldənizlər dövründə Əlincəqalanın mühüm əhəmiyyətini və iqamətgaha çevrilməsini nəzərə alaraq XII-XIII əsrdə zərb edilən mis sikkələrin bir qisminin Əlincəqalada kəsildiyini ehtimal etmişlər. Cəlairilər dövründə də sikkə zərbinin olduğunu söyləyənlər olmuşdur. Təəssüf ki, sikkələr haqqında dəqiq məlumat verilmədiyindən bu fikirlər ehtimal olaraq qalmışdır. A.K.Markov tərəfindən nəşr olunan sikkədə isə olduqca maraqlı məlumat vardır. Numizmat alimlərimizə gərəkli olsun deyə, mis sikkənin üzərindəki epiqrafı olduğu kimi təqdim edirik. Sikkənin avers, yəni üz hissəsində *...zərb ...qale... Alince; revers*, yəni tərs üzündə *v (vav hərfi) ...rəsul... Əbu Bəkr...* sözləri yazılmışdır. Yazılar altıüzlü həndəsi fiqurun içərisindədir. Sikkənin zərb tarixi yoxdur. Lakin şərqşünas A.K.Markov epiqrafda xatırlanan Əbu Bəkr adının birinci ərəb xəlifəsinə aid olduğunu göstərir. Qeyd edək ki, ümumiyyətlə, sünni təriqətinə məxsus hökmdar sikkələrinin üzərində dörd ərəb xəlifəsinin adı yazılırdı. Burada isə yalnız Əbu Bəkrin adı xatırlanmışdır. İkonoqrafik baxımdan bu sikkə Hülakülər dövrünün sikkələrinə bənzəyir. Qeyd edək ki, Əlincəqaladan aşkar olunan sikkələr üzərində tədqiqat davam etdirilir. Ola bilsin ki, gələcəkdə daha dəqiq məlumat əldə edəcəyik. Belə nəticəyə gəlmək olar ki, Əlincəqala həm Sasanilər, həm də sonrakı dövrlərdə mühüm zərbxana və siyasi-mədəni mərkəz olmuşdur. Faktlar onu göstərir ki, Əlincəqala müxtəlif dövrlərdə müxtəlif təriqətə məxsus hökmdarların iqamətgahı olmuşdur. Şübhəsiz ki, bu, qalanın əlçatmaz mövqedə yerləşməsi ilə bağlı idi. Əlincəqalanın tarixi ilə bağlı maraqlı məlumat verən sikkələrin "Şahtaxtı" adlanan Narınqaladan tapılması da bununla bağlıdır.

Naxçıvandan aşkar olunan bir çox sikkələrin üzərində il və şəhər adı olmadığından onların zərb yerini müəyyənləşdirmək xeyli çətindir. Bu daha çox Eldənizlərin dövrünün sikkələrinə aiddir. Ehtimal ki, Eldəniz sikkələrinin bir qismi Əlincəqalada kəsilmiş, lakin təhlükəsizlik məqsədilə onların zərb yeri gizli saxlanmışdır.

Əlincəqalanın əfsanələşmiş qala divarları da onun qədim tarixindən xəbər verir, çox mətləblərin üstünü açır. Əlincəqala, məlum olduğu kimi, ilk dəfə "Kitabi-Dədə Qorqud" dastanında xatırlanmış, IX əsrdən başlayaraq bir çox orta əsr mənbələrində qala yaxınlığında baş verən döyüşlər haqqında məlumat verilmiş, Eldənizlərin əsas iqamətgahlarından biri hesab olunmuşdur. Əlincəqalanı daha çox məşhurlaşdıran isə qala sakinlərinin Əmir Teymura qarşı 14 il müqavimət göstərməsidir. Elə buna görə də Əlincəqalanın tarixi daha çox inkişaf etmiş orta əsrlər dövrü ilə bağlanmışdır. Əslində isə Əlincəqalanın memarlıq üslubu onun daha qədim dövrlərə aid olmasından xəbər verir. Məlum olduğu kimi, Əlincəqalanın memarlığında düz divarlar, düzbucaqlı çıxıntılar, yonulmuş kvadrat formalı daşlardan üzləmələr üstünlük təşkil edir. Bu memarlıq üslubu Sasanilər dövründə çox geniş yayılmışdır.

Əlincəqalada düzbucaqlı bürclər və düzbucaqlı çıxıntıları olan divarlar, həmçinin yonulmuş daşlardan istifadə üstünlük təşkil edir. Bu tip tikintilər Naxçıvanda qədim dövrdən məlum olmaqla, Qazançıqala, Vayxırqala və Oğlanqalada geniş tətbiq edilmişdir. Bu memarlıq üslubu, həmçinin erkən orta əsrlərə aid Dərbənd və Bayburt qalalarının da tikintisində müşahidə olunur. Orta əsr Azərbaycan şəhəri Dərbənd mənbələrdə I əsrdən xatırlansa da, müdafiə divarlarının tikilmə tarixi hələlik VI əsrə aid edilir. Əlincəqalanın memarlığında isə Sasani dövrünün ənənələri aydınca hiss edilir. Bu xüsusiyyətlər xüsusilə Xanəgah kəndi istiqamətində inşa olunan divarlarda görünməkdədir.

*Son tədqiqatlar zamanı Əlincəqaladan VII əsrdə zərb edilən sikkələrin və Sasanilər dövrünə aid arxitektura qalıqlarının tapılması onun qədim tarixini bir daha sübut edir. Əgər VII əsrdə Əlincəqalanın Mərkəzi Asiya ölkələri ilə əlaqələri olmuşdursa, deməli, onun tikilmə tarixi daha da qədim dövrə aiddir. Heç şübhə etmirik ki, gələcək araşdırmalar Əlincəqalanın tarixinə aid yeni faktların aşkar olunması ilə nəticələnəcək, Azərbaycan xalqının qəhrəmanlıq tarixinin səhifələrini öz sinəsində qoruyan Əlincəqala ilə bağlı daha geniş məlumatlar əldə ediləcəkdir.*

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

---

"Naxçıvan tarixi"ndən

# İlkin şəhər mədəniyyətinin yaranması

***Arxeoloji tədqiqatlar Naxçıvanda şəhərtipli yaşayış yerlərinin e.ə. III minillikdə, yəni beş min il bundan əvvəl formalaşdığını təsdiq etmişdir. Azərbaycanda şəhər mədəniyyətinin öyrənilməsi sahəsində ilk addımlar Vəli Əliyev tərəfindən atılmışdır. O, II Kültəpədə apardığı araşdırmalarla Azərbaycanda, o cümlədən Naxçıvanda şəhər mədəniyyətinin olduğunu təsdiq etmişdir.***

Bu yaşayış yeri Babək rayonunun Yuxarı Uzunoba kəndi yaxınlığında Cəhriçayla Naxçıvançayın birləşdiyi ərazidədir. Birbaşa Erkən Tunc dövrü təbəqəsinin üzərində yerləşən Orta Tunc dövrü təbəqəsi 4,5 metr qalınlığındadır. Araşdırmalar zamanı bu təbəqədə tikinti qalıqları ilə seçilən dörd mərhələnin varlığı ortaya çıxarılmışdır. II Kültəpə yaşayış yerini əhatə edən müdafiə divarı müəyyən məsafədə yerləşdirilən dördkünc formalı bürclərlə möhkəmləndirilmişdir. Müdafiə divarının möhkəmləndirilməsi, habelə onun memarlıq xüsusiyyətlərinin effektini artırmaq üçün dördkünc formalı kontrforslardan da istifadə edilmişdir. Divarların bəzi qismində çay daşlarından çəkilmiş üzlüyün qalıqları saxlanmışdır. Faktlar göstərir ki, bu dövrdə divarların xarici görünüşünün mükəmməl olmasına xüsusi fikir verilmişdir.

Orta Tunc dövründə ətrafı möhkəmləndirilmiş yaşayış yerlərindən biri də Şahtaxtı olmuşdur. Araşdırmalara əsasən demək olar ki, yaşayış yeri bir neçə cərgə divarla əhatə olunmuşdur. Şübhəsiz ki, onun Narınqala hissəsi hakim təbəqənin yaşaması üçün nəzərdə tutulmuşdur. Bu yaşayış yerində həyat Dəmir dövrünədək davam etmiş, həmin dövrdə də yaşayış yeri qala-şəhər kimi mühüm inzibati mərkəz olmuşdur.

Naxçıvanda şəhər mədəniyyətinin izlərini yaşadan ərazilərdən biri də Nuhdaban yaşayış yeridir. Bu, Naxçıvanın cənub tərəfində yerləşən ilkin şəhərdir. Naxçıvan şəhərinin adı da Nuhçıxan sözündən yaranmışdır. Nuhdaban Nuhçıxanın ilkin şəhər statusu qazanmış adıdır. Rəvayətə görə, Nuhdaban şəhəri adından da göründüyü kimi Nuh Peyğəmbərin adı ilə bağlı olmuş ilkin şəhərtipli yaşayış yeridir. Nuhdabanda bir neçə təbəqədən ibarət qəbiristanlığın olması da burada məskunlaşmanın qədim tarixindən xəbər verir. Nuh Peyğəmbərin dabanını basdığı, yəni oturaq həyatın başladığı yer mənasını ifadə edən Nuhdaban ilkin şəhəri sonralar genişlənərək Naxçıvan şəhərinə çevrilmişdir. Rəvayətlərdə Nuhdaban ərazisində üzüm bağlarının olmasına dair motivlər bu yaşayış yerinin oturaq həyata aid olduğunu göstərir. Əfsanədə üzüm bağlarının Nuh Peyğəmbər tərəfindən salındığı bildirilir. Nuhdaban yaşayış yerinin Əshabi-Kəhf ziyarətgahının yaxınlığında olması bu ziyarətgahın Nuh Peyğəmbərin adı ilə bağlı olan tanrıçılığın əsas mərkəzlərindən biri olduğunu yəqinləşdirməyə əsas verir. Nuhdaban ərazisində yeraltı sığınacaq tipli mağaralar, bal və su mənbələri haqqında olan rəvayətlər də burada yaşayışın olduğunu təsdiqləyir. XX əsrin əvvəlində görkəmli rəssam Bəhruz Kəngərli Nuhun qəbrinin orijinaldan rəsmini çəkmişdir.

Bu dövrün qədim şəhərlərindən biri də Naxçıvan şəhəri olmuşdur. Qədim Naxçıvan nekropolu 1968-ci ildə tikinti işləri görülərkən təsadüfən aşkar olunmuşdur. O, şəhərin şimalında, Naxçıvan-Şahbuz yolunun sol tərəfində yerləşir. Nekropolun ərazisi hərbi şəhərciyin müasir tikililəri altında qalmışdır. 1968-ci ildə dağıdılmış qəbirlərin materialları toplanaraq Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Aşkar edilmiş materialların bir qismini Vəli Əliyev çap etdirmişdir. Aşkar edilmiş materiallar e.ə. II minilliyə aiddir. Bu materiallar Naxçıvanın digər abidələrindən aşkar olunmuş şəhər mədəniyyətinə aid keramika məmulatı ilə eyni xüsusiyyətlərə malikdir və burada qədim dövrdən yaşayışın olduğunu təsdiq edir. Naxçıvan şəhərinin qədim mədəniyyəti Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf edib təşəkkül tapmışdır. E.ə. III minilliyin sonunda iqtisadiyyatın və ticarətin inkişafı Naxçıvanda şəhərtipli yaşayış məskənlərinin yaranmasına imkan vermişdir. Naxçıvan şəhəri ərazisində aşkar edilmiş ən qədim tapıntılar e.ə. II minilliyin ikinci yarısına aiddir. Bu tapıntılar təsadüfən dağıdılmış qəbirlərdən aşkar edilmiş boyalı qablar, tunc əşyalar və başqa maddi-mədəniyyət nümunələrindən ibarətdir. Maddi-mədəniyyət qalıqlarına əsaslanaraq bəzi tədqiqatçılar Naxçıvan şəhərinin əsasının e.ə. III minillikdə qoyulduğunu qeyd etmişlər. Tədqiqatlar zamanı Naxçıvan şəhəri ərazisində Tunc dövrünə aid qəbir abidələri, Antik dövrə aid təsərrüfat binalarının qalıqları və qəbir abidələri aşkar olunmuşdur. Belə güman etmək olar ki, yaşayış yerinin qalıqları müasir tikintilərin altında qalmışdır. Naxçıvan şəhərinin ərazisində e.ə. III minillikdə yaşayışın olması heç bir şübhə doğurmur. Qədim Naxçıvan şəhərinin qalıqları indiki hərbi şəhərciyin müasir tikintiləri, yaxud orta əsr Naxçıvan şəhərinin xarabalıqları altında qalmışdır. Qeyd etmək lazımdır ki, qədim Naxçıvan şəhərinin yaxınlığında e.ə. II minilliyin əvvəllərində bir neçə yerdə, o cümlədən Şahtaxtı, Qızılburun və Qarabağlarda şəhərtipli yaşayış yerləri mövcud olmuşdur. Naxçıvan şəhəri e.ə. III minillikdə təşəkkül tapan qədim şəhər mədəniyyətinin ən mühüm mərkəzlərindən biri olmuşdur.

***Mənbə: "Naxçıvan tarixi" çoxcildliyinin I cildi***

# Şair olmaya bilərsən, vətəndaş olmağa borclusan

*(Oçerk)*



Məktəbin qapısına çatanda qarşısına çıxan şagirdlərinin salamı Yunis müəllimi düşüncələrdən ayırdı. Adəti üzrə onların əhvalını soruşdu. Cavablarından üzünə təbəssüm qondu. Özünün şagird olduğu illəri, oxuduğu məktəb binasını xatırladı, ucqar dağ kəndində o vaxt yaşamağın, oxumağın çətinliklərini gözləri qarşısına gətirməyə çalışdı. Yadına anasının bez parçasından tikdiyi məktəb çantası, təhsil aldığı məktəb binasının miskin görkəmi, yöndəmsiz darısqal sinif otaqları düşdü. Dəfələrlə bu barədə şagirdlərinə danışsa da, həmişə görmüşdü ki, onların buna inanmaqları gəlmir. Elə onda da düşünmüşdü ki, bugünkü uşaqlarda nə günah? Gözlərini açıb müasir məktəb görürlər. Görürlər ki, təhsil aldıqları məktəbdə elektron lövhələr var, kompüterlər var, böyük idman zalı, dünya şöhrətli klassik və müasir Azərbaycan ədəbiyyatının korifeyləri ilə yanaşı, xarici ölkə ədəbiyyatı nümayəndələrinin bir-birindən maraqlı əsərləri ilə zəngin olan kitabxana var. Dərslikləri şagirdlərə pulsuz verirlər. Hələ sinifdə oturub Naxçıvan şəhərindəki muzeylərlə əlaqə saxlamaq... Distant təhsilin tətbiqi... Ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan tələbələrə kompüterlərin, Prezident təqaüdünün verilməsi... Vallah, adama nağıl kimi görünür. İllər öncə bunları yuxuda belə, görməzdin...

Bu fikirlərlə müəllimlər otağının qapısına çatdığını gördü. İçəri keçdi. Dərslərin başlanmasını bildirən zəng vurulana qədər müəllimlərin müxtəlif mövzularda söhbəti ənənə şəklini almışdı. Ölkəmizdə, muxtar respublikada görülən işlər, müstəqilliyin xalqımıza verdiyi bəhrələr bu söhbətlərin başlıca mövzusu idi. O və onun kimi yaşlı müəllimlər isə bu günü dünənlə müqayisə etməyə üstünlük verirdilər. Bu gün də söhbət bu istiqamətdə idi... Elə bu anda onu da düşündü ki, dünənə qədərki söhbət işıqdan, qazdan, çörək qıtlığından gedirdisə, şükür Allaha, bu söhbətlər daha yoxdur, çünki həmin problemlər öz həllini yüksək səviyyədə tapıb.

...Yunis Quliyev 1954-cü ildə Şahbuz rayonunun Kükü kəndində doğulub. Bu yaşayış məntəqəsində orta təhsil alıb. Orta məktəbi gümüş medalla başa vurub. 1971-1975-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu kimya ixtisası üzrə bitirib. İlk əmək fəaliyyətinə də Kükü kənd tam orta məktəbində başlayıb. 41 ildir ki, kükülü uşaqlara kimya fənninin sirlərini öyrədir. O, muxtar respublikamızda "Baş müəllim" adını alan ilk gənc müəllim, 2013-cü ildə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olub. Orta məktəbdə dərs dediyi şagirdlərdən 2 nəfəri bu gün kimya üzrə fəlsəfə doktoru, 1 nəfəri elmlər doktorudur. Kimya eleminin sirlərini Yunis müəllimdən öyrənən Əlləddin Məmmədov və Sahibə Seyidova da "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibləridir. Dərs dediyi şagirdlərdən 100-dən çoxu bu gün ölkəmizin müxtəlif tədris ocaqlarında müəllim kimi fəaliyyət göstərir.

Sadaladıqlarımız bir müəllim ömrünə yazılan səhifələrdir. Bu səhifələrdə yuxusuz gecələr, öyrənmək və öyrətmək həvəsi, məktəbdənkənar və sinifdənxaric tədbirlər, olimpiadalar, viktorinalar özünə yer alıb.

* * *

Bəs onu bir müəllim kimi fərqləndirən keyfiyyətlər hansılardır? Bu suala cavab tapmaq üçün üz tuturam Kükü kənd tam orta məktəbinə. Məktəbin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Araz Məmmədovla görüşürəm. Gəlişimin məramını ona bildirirəm. Yunis müəllimi hələ özüm də orta məktəbdə müəllim işlədiyim vaxtlardan tanıdığımı diqqətinə çatdırıram. Bu tanışlıq söhbəti ortaya körpü salır:

– Yunis müəllim ölkə səviyyəsində tanınan müəllimlərdən biridir. Mənə də orta məktəbdə dərs deyib. Yadıma direktorluq fəaliyyətinə başladığım ilk vaxtlardakı bir məqam düşür. İlk dəfə Yunis müəllimin dərsini dinləməyə, düzünü deyim ki, bir az çəkinirdim. Düşünürdüm ki, adı respublika müəllimlərinin ön sıralarında çəkilən, təcrübəsi respublika daxilində yayılan, yetirmələrinin səsi elm, təhsil ocaqlarından, yüksək vəzifə postlarından gələn, ilk dəfə əlimə jurnal alıb sinfə girəndə və elə ondan sonra da öz məsləhətlərini verən bir müəllimin dərsində oturmaqla onun xətrinə dəymərəmmi? Düşündüklərimi yaşlı müəllimlərdən birinə söylədim. Gülümsünərək dedi ki, onun dərsində oturarkən nə isə öyrənəcəksən, bütün yorğunluğun çıxacaq, 45 dəqiqənin necə başa çatdığını hiss etməyəcəksən. Belə də oldu. Bu gün də onun dərslərini dinləyərkən görürəm ki, Yunis müəllimin heç bir dərsi əvvəlkini təkrarlamır. Bu isə o deməkdir ki, Yunis müəllim öz üzərində daim çalışır, pedaqoji və metodiki yenilikləri izləyir, yeni təlim üsullarını öz dərslərinə tətbiq edir, elektron lövhədən istifadəyə üstünlük verir.

* * *

Yunis müəllimə bir sual ünvanlayıram:

*– Siz müəllimi necə görürsünüz? Bu sənət sahibini necə xarakterizə edərdiniz?*

– Bəziləri düşünür ki, müəllim zabitəli olarsa, onun şagirdləri də yüksək bilik qazana bilərlər. Belə düşünənlər kökündən yanılırlar. Unudurlar ki, zabitəli olmaq tələbkar olmaq demək deyil. Bir də onu unudurlar ki, parta arxasında oturan şagirdin sabah kim olacağını heç kim deyə bilməz. Yəni bu gün əlifbanı öyrənən şagirdə şəxsiyyət kimi yanaşmaq lazımdır. Üzeyir Hacıbəyov, Səməd Vurğun, Bəhruz Kəngərli məktəbdə oxuyanda hansı müəllim deyə bilərdi ki, bu sabah onlar Azərbaycanı dünyada tanıdacaq sənətkarlar olacaqlar?

İkinci bir tərəfdən, məsələ onda da deyil ki, bu günün şagirdi mütləq sabahın hansısa bir sahə üzrə tanınmış nümayəndəsi kimi yetişməlidir.

Ancaq nədənsə, bəzi müəllimlərimiz dərs dedikləri şagirdlərinin ali məktəblərə qəbul olunmasını özlərinin müvəffəqiyyəti hesab edirlər. Heç orta ixtisas təhsili də onları qane etmir. Bəs onda son illərdə muxtar respublikamızda peşə təhsilinə niyə belə ciddi yanaşılır, onun inkişafına qayğı göstərilir? Vətənpərvərlik hissi varsa, onda alim də, müəllim də, hüquq işçisi də, çəkməçi və saatsaz da öz xalqı ilə birlikdə olacaq.

* * *

Söhbətimizi evində, çay süfrəsi arxasında davam etdirməyi məsləhət görən Yunis müəllimin sözünü yerə salmırıq.

Evdə gözümə sayını təxminən müəyyən etmək mümkün olmayan kitab şkafı sataşır. İlk anda düşünürəm ki, yəqin, Yunis müəllimin ixtisası ilə bağlı kitablardır. Ancaq burada dünya və Azərbaycan ədəbiyyatının nümunələrini, xüsusilə klassiklərimizin əsərlərini görəndə təəccübümü saxlaya bilmirəm. Yunis müəllim bunu hiss edir:

– Düzünü deyəcəm: mütaliə etmədiyim günü ömrümdən saymıram. Mütaliə insanın formalaşması üçün ən gözəl vasitədir. Kimlərinsə mənimlə razılaşmayacağına şübhə etmirəm. Deyəcəklər ki, indi kompüter əsridir. Düzdür, kompüter əsridir, yeni texnologiyaların tətbiqi zamanın tələbidir. Ancaq hər şeyin öz yeri var...

Stola çay gəlir, müxtəlif şirniyyatlar düzülür. Sadə kənd müəlliminin süfrəsində nələr yoxdur? Həyətindəki təndirdə bişirilən çörək, özünün saxladığı arı ailələrinin təmiz məhsulu olan bal, bağçasında yetişdirdiyi cürbəcür meyvələr.

*– Yunis müəllim, vaxtınızı necə bölüşdürürsünüz? Məktəb, dərslərə hazırlıq, mütaliə, təsərrüfat işləri...*

Yenə sifətinə təbəssüm qonur:

– Məşğul olduğun işi sevməlisən, onda vaxtın azlığı gözünə görünməyəcək.

Stolun üstündəki çörəyə baxıram. Elə bu müqəddəs nemət söhbətimizin mövzusunu genişləndirir.

*– Yunis müəllim, sirr deyil ki, bu gün kəndlərimizdə çox az həyətlərdə təndir çörəkləri bişirilir. Siz isə xalqımızın bu adətini yaşadırsınız...*

– Təndirin hər bir kənd evində müqəddəs sayılmasını hələ uşaq vaxtı anamdan eşitmişdim. Sonra bunu özüm də gördüm. Müqəddəs olana ehtiramla yanaşılmalıdır. Çörək isə nemətlərin müqəddəsidir. Təndirdə bişirilən bu müqəddəslik bir az da böyük önəm kəsb edir. Təndirdə bişirilən çörəyin ətri az qala kəndin o başına çatır...

*– Bəs digər adət-ənənələrimiz, məsələn, mağarda keçirilən kənd toyları, qara zurna, gəşti tutmaq, yallı getmək...*

Burada Yunis müəllimin sifəti tutqunlaşır, bir qədər düşünür, sonra dillənir:

– Bir neçə yaxın qohumumun Şahbuz və Naxçıvan şəhərlərində restoran toylarına hazırlaşdıqlarını eşidəndə əsəbiləşdim, onları qınadım. Elə əsassız bəhanələr gətirdilər ki... Qəti razı deyiləm... Adətlərimiz qorunmalıdır, gələcək nəslə ötürülməlidir. Onlar ata-babalarımızın bizə miras qoyduqları ən qiymətli sərvətlərdir. Onlara arxa çevirmək olmaz. Bu baxımdan müəllimlərin də üzərinə mühüm vəzifələr düşür. Bayaq da dedim axı, şərt təkcə savadlı gənclik yetişdirmək deyil, həm də vətənpərvər gənclik yetişdirməkdir... Görkəmli rus şairi Nekrasov deyirdi ki, şair olmaya bilərsən, vətəndaş olmağa borclusan. Bunun üçün hansı təbəqənin nümayəndəsi olmaq şərt deyil.

*... Ayrılmaq vaxtıdır. Kənd yeridir, kənd ailəsinin qayğıları çoxdur. Yunis müəllim və onun ailəsini belə qayğılarla üz-üzə qoyub sağollaşırıq. Yolboyu gözlərim önündən şərəfli bir müəllim ömrü keçir. Xalq üçün, Vətən üçün düşünən, onun sabahına cavabdehlik hissi daşıyan, vətənpərvərliyi həyat kredosu sayan bir ömür. Belə yaşamağı ən gözəl həyat tərzi sayan Yunis Quliyevin keçdiyi həyat yolu barədə düşündə fikirləşirsən ki, belə ömür yaşamağa dəyər.*

**Muxtar MƏMMƏDOV**

***Muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı hazırlanıb. Məlumat bankına müvafiq məlumatları daxil edəcək mərkəzi və yerli icra hakimiyyəti orqanlarının məsul şəxsləri üçün Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində seminar keçirilib.***

# Seminar keçirilib



Tədbiri komitə aparatının rəhbəri Zeynal Hümbətov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının fəaliyyət göstərməsi ayrıca müddəa kimi yer alıb. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 23 yanvar tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası" təsdiq edilib.

Vurğulanıb ki, elektron məlumat bankının istifadəçiləri Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər, Ədliyyə, Təhsil, Səhiyyə, Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Miqrasiya Xidməti, yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanlarıdır.

Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin əməkdaşı Şahin İsmayılov seminar iştirakçılarına elektron məlumat bankının istifadə qaydaları ilə bağlı əyani şəkildə ətraflı məlumat verib. Bildirilib ki, uşaqlar haqqında məlumat bazası elektron məlumat bankının mərkəzi serverində yerləşir və bura hər bir uşaq barədə fərdi məlumatlar daxil edilir. Elektron məlumat bankına uşaq barəsində məlumatlar daxil edən mərkəzi və yerli icra hakimiyyəti orqanları yalnız müəyyən olunmuş formaya uyğun elektron anketin öz səlahiyyətlərinə aid hissələri üzrə bəndləri doldururlar.

Vurğulanıb ki, elektron məlumat bankının idarə olunmasına, məlumat bankına məlumatların yerləşdirilməsinə və ondan istifadəyə nəzarəti məlumat bankının administratoru həyata keçirir. Elektron məlumat bankının fasiləsiz fəaliyyətinin və daxil edilən məlumatların mühafizəsinin təmin edilməsi, məlumatların işçi stansiyalardan ötürülməsinə və işçi stansiyalarla bağlantıların təmin edilməsinə nəzarət, elektron məlumat bankında qeydiyyata alınmış uşaq barəsində məlumatları mərkəzi serverə daxil etmək, mərkəzi serverə qoşulmaq üçün müvafiq bağlantı parametrlərini vermək, elektron məlumat bankının mühafizəsini təmin etmək məqsədilə istifadəçinin adının, şifrəsinin və digər parametrlərinin dəyişdirilməsi üçün əməliyyat aparmaq, müvafiq statistik məlumatlar hazırlayaraq təhlil etmək administratorun əsas vəzifəsidir. Texniki problemlər yarandıqda, serverdə virus müşahidə edildikdə və səhv məlumatlar göndərildikdə administrator işçi stansiyasının fəaliyyətini məhdudlaşdırır və ya dayandırır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Taekvondo üzrə yeniyetmələr arasında daxili birinciliyə yekun vurulub

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Şərq Döyüşü Sənəti Federasiyasının birgə təşkil etdiyi taekvondo üzrə yeniyetmələr arasında daxili birinciliyə yekun vurulub. 2 fevral – Gənclər Günü münasibətilə keçirilən tədbirin açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, federasiyanın sədr müavini Cavanşir Salayev idmançılara Gənclər Günü ilə bağlı geniş məlumat veriblər və bu gün münasibətilə onları təbrik ediblər.

40-dan çox idmançının mübarizə apardığı daxili birincilikdə taekvondoçular tatami üzərinə 7 çəki dərəcəsində çıxıblar. Birincilikdə Amal Heydərli (25 kiloqram), Rəşid Zülfüqarov (30 kiloqram), İntiqam Məmmədov (33 kiloqram), Ülvi Nəcəfov (37 kiloqram), Ramil Salayev (41 kiloqram), Ülvi Kazımlı (51 kiloqram) və Kərim İsmayılov (68 kiloqram) rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək zirvəsinə qalxıblar.

Sonda qalib idmançılara diplomlar təqdim edilib.

# "Araz-Naxçıvan" komandasının daha iki futbolçusu Azərbaycan milli komandasına dəvət olunub

Naxçıvan Muxtar Respublikasında idman və idmançılara göstərilən diqqət öz bəhrəsini verməkdədir. Məhz bunun nəticəsidir ki, idmançılarımız mütəmadi olaraq beynəlxalq arenalarda çıxış edir, Azərbaycan yığmasının tərkibinə dəvət olunurlar. Muxtar respublikanı təmsil edən daha iki futbolçumuz Azərbaycan yığmasının heyətinə cəlb edilib. "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun yetirmələri olan Əsgər Əsgərov və Elşad Əliyev Azərbaycanın 17 yaşlılardan ibarət millisinin təlim-məşq toplanışına yollanıblar. Hər iki futbolçumuzun milliyə dəvəti ilə bağlı fikirlərini öyrəndik.

Əsgər Əsgərov: "Milliyə dəvət hər bir futbolçunun arzusudur. Çalışacam ki, təlim-məşq toplanışında özümü yaxşı göstərim və Azərbaycan millisinin dəyişilməz üzvü olum. Bunu bacaracağıma əminəm".

Elşad Əliyev: "Bu, ilk olaraq məşqçilərin bizə göstərdiyi etimaddır. Hər bir futbolçu çalışmalıdır ki, məşqçi tərəfindən ona olan güvəni heç vaxt itirməsin. İndi məqsədim Azərbaycan yığmasındakı məşqçilərin etimadını qazanmaqdır. Mənim bu səviyyəyə gəlib çatmağımda "Araz-Naxçıvan" futbol komandasının rolu böyükdür".

**Ceyhun MƏMMƏDOV**


**ŞƏRQ qapısı**

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 104